**Azərbaycan–Türkiyə arasında əməkdaşlıq**

- AQTA yarandığı gündən etibarən Türkiyənin aidiyyəti qurumları ilə sıx ikitərəfli əməkdaşlıq edir. Bu əməkdaşlıq əsasən, qida təhlükəsizliyi, baytarlıq, fitosanitar nəzarət, laboratoriya fəaliyyəti, idxal-ixrac prosedurları və təcrübə mübadiləsi sahələrini əhatə edir. Mütəmadi olaraq virtual və fiziki görüşlər keçirilir, qarşılıqlı səfərlər təşkil olunur və təcrübə mübadiləsi aparılır.
- **7–8 may 2024-cü il** – AQTA sədri Baş nazirin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Türkiyəyə rəsmi səfər etmişdir. Ankara şəhərində keçirilmiş Azərbaycan–Türkiyə Hökumətlərarası Komissiyasının 11-ci iclasında və Biznes Forumda iştirak etmiş, heyvan xəstəlikləri ilə mübarizəyə dair niyyət bəyannaməsi imzalanmışdır.
- **8 may 2024-cü il** – Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri İbrahim Yumaklı ilə keçirilmiş görüşdə qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarət sahəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsi müzakirə olunmuşdur.
- **16 may 2024-cü il** – AQTA-da Türkiyə Toxumçular Birliyi və Toxum Yetişdiriciləri Alt Birliyinin nümayəndə heyətləri ilə görüş keçirilmiş, toxumçuluq sahəsində əməkdaşlıq imkanları müzakirə olunmuşdur.
- **27 sentyabr 2023-cü il** – AQTA sədri Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri İbrahim Yumaklı ilə görüşmüşdür. Görüşdə qida təhlükəsizliyi, laboratoriya əməkdaşlığı və yeni saziş layihələrinin hazırlanması üzrə fikir mübadiləsi aparılmışdır.
- **2023-cü il yanvar** – Türkiyəyə təşkil olunmuş təlim səfəri zamanı nümayəndə heyəti pestisidlərin qeydiyyat sistemi və dövriyyəsinə nəzarət mexanizmi ilə yaxından tanış olmuşdur.
- **17 mart 2021-ci il** – AQTA sədri Türkiyənin kənd təsərrüfatı və meşə naziri Bekir Pakdemirli ilə keçirilmiş görüşdə qida təhlükəsizliyi və aqrar sahədə əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.
- **27–29 sentyabr 2021-ci il** – AQTA sədrinin rəhbərliyi ilə Türkiyəyə işgüzar səfər çərçivəsində qida təhlükəsizliyi üzrə hökumətlərarası saziş və əlavə 3 əməkdaşlıq sənədi imzalanmış, Milli Qida Referans Laboratoriyasına səfər edilmiş və laboratoriya əməkdaşlığı müzakirə olunmuşdur.
- **19–25 sentyabr 2021-ci il** – AQTA nümayəndələri Türkiyəyə təcrübə səfəri etmiş, Ankara və Antalya şəhərlərində bitki sağlamlığı, pestisid nəzarəti və idxal-ixrac mexanizmləri üzrə Türkiyə təcrübəsi ilə tanış olmuşlar.
- **7–10 fevral 2019-cu il** – AQTA nümayəndə heyəti İzmir şəhərində keçirilmiş “Agroexpo” sərgisində və “Nazirlərin Zirvə Görüşü”ndə iştirak etmiş, Sloveniya, Serbiya və Gürcüstanın aidiyyəti nazirləri ilə qida təhlükəsizliyi sahəsində ikitərəfli görüşlər keçirmişdir.